AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 15 (1517), 17 - 23 may 2022-ci il

Qəzet 2001-ci ildən çıxır.

## *2022 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, 2022 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2022-ci il mayın 10-dan iyunun 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd;

2.2. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.3. 2022 Formula 1 Azərbaycan Qran Pri yarışına bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 2022 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula One Management Limited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 2022 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin beynəlxalq hava limanlarında "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2022 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 10 may 2022-ci il*

## MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə Kamerunda səfərdə olub



Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti, Yaunde-2025 İslam Həmrəyliyi Oyunlarının təftiş komissiyasının prezidenti Çingiz Hüseynzadə Kameruna səfər edib. Ç.Hüseynzadənin rəhbərlik etdiyi nümayəndə heyəti Kamerun Milli Olimpiya Komitəsinin prezidenti Hamad Kalakaba, idman naziri Narcisse Mouelle Kombi, Yaunde şəhərinin meri Messi Atangana, xarici işlər nazirinin müavini Mbaya Feliks ilə görüşüb.

Görüşlərdə ölkənin beynəlxalq idman tədbirinə hazırlıq prosesi müzakirə olunub. 2025-ci ildə Kamerunun İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi ilə əlaqədar olaraq komissiya üzvləri idman obyektlərinin vəziyyəti ilə tanış olub və yarışların baş tutacağı infrastruktur sahələrinə baxış keçiriblər.

Çingiz Hüseynzadə səfər zamanı həmçinin Kamerunun baş naziri Josef Ngutera ilə də görüşüb. Görüşdə baş nazir İslam Həmrəylik Oyunlarının Kamerunda keçirilməsinin ölkəsi üçün əhəmiyyətli olduğunu vurğulayıb. Bildirilib ki, bunun üçün Yaunde şəhərində idman və qonaqlama infrastrukturu yenilənir, təmir və bərpa olunur.

Qeyd edək ki, 2025-ci ildə VI İslam Həmrəyliyi Oyunlarına Kamerunun ev sahibliyi etməsi planlaşdırılır. Məhz bununla əlaqədar olaraq Yaunde-2025 İslam Həmrəyliyi Təftiş Komissiyası ölkədə beynəlxalq idman tədbirinə hazırlıq prosesini araşdırır.

## Fərid Qayıbov federasiya nümayəndələri ilə görüşüb

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Olimpiya idman növləri üzrə milli federasiyaların nümayəndələri ilə növbəti görüş keçirilib. Görüşdə iştirak edən gənclər və idman naziri Fərid Qayıbov federasiya nümayəndələri və mütəxəssisləri salamlayaraq, son vaxtlar görülmüş işlər və qarşıdakı planlardan danışıb, görüşün məqsədi barədə məlumat verib.




Görüşün gündəliyinə əsasən, 2023-cü il üçün büdcənin planlaşdırılması, tibbi məsələlər, idmançıların reytinq cədvəli, 2024-cü il Paris Yay Olimpiya Oyunlarına ilkin hazırlıq, V İslam Həmrəyliyi Oyunlarına, Dünya Oyunlarına, Avropa Yeniyetmələrinin Olimpiya Festivalına hazırlıq, Azərbaycanda keçirilməsi nəzərdə tutulan beynəlxalq tədbirlər və beynəlxalq idman qurumlarında təmsil olunma məsələləri müzakirə olunub. Həmçinin ölkə miqyaslı yarışların keçirilmə qaydaları ilə bağlı texniki reqlamentin hazırlanması, məşqçi və hakimlər üçün seminarların təşkili, idmançıların Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təcrübəyə cəlb edilməsi və yeni layihələr barədə fikir mübadiləsi aparılıb.

## *Paytaxtımız gələn il daha bir mötəbər yarışa ev sahibliyi edəcək*

Ölkəmizin paytaxtı 2023-cü ildə keçiriləcək taekvondo üzrə dünya çempionatına ev sahibliyi edəcək. Bununla bağlı qərar Dünya Taekvondo Federasiyasının (WTF) İcraiyyə Komitəsinin iclasında qəbul olunub. Qeyd edilib ki, yarışın tarixi yaxın zamanlarda dəqiqləşəcək. Azərbaycanda ilk dəfə böyüklər arasında keçiriləcək bu mötəbər yarış WTF-nin 50 illik yubileyinə təsadüf edəcəyindən xüsusi önəm daşıyacaq.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## Anons

### "Küləyə qalib gəl" şüarı altında Bakı Marafonu keçirilib

Səh. 2

### *Fərid Xəlilov:* "İnanırıq ki, gördüyümüz işlər uğurlu nəticələrini verəcək"

Səh. 3

### Tərbiyədə şəxsi nümunə əvəzolunmaz ecazkar qüvvədir

Səh. 5



### Qətərə gedən yol Cənubi Amerikadan başlayıb

Səh. 7

# "Küləyə qalib gəl" şüarı altında Bakı Marafonu keçirilib




Mayın 15-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə 5-ci Bakı marafonu keçirilib. "Küləyə qalib gəl" şüarı altında keçirilən "Bakı Marafonu-2022"də 15 minədək iştirakçı qeydiyyatdan keçib. Marafonda iştirak üçün Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayan, çalışan əcnəbilər, eləcə də bir sıra ölkələrdən nümayəndələr də müraciət ediblər. Qeydiyyatdan keçənlər arasında ABŞ, Almaniya, BƏƏ, Böyük Britaniya, Çin, Fransa, Kamerun, Nigeriya, Qazaxıstan, Rusiya, Türkiyə, Ukrayna, Uqanda və digər ölkələrdən iştirakçılar olublar.

Bakı marafonu bu il fərqli marşrutda təşkil edilib. Yarışın start nöqtəsi ilə yanaşı, finişi də Dövlət Bayrağı Meydanında olub. İyirmi bir kilometrlik məsafəni əhatə edən marafonda iştirakçılar Dövlət Bayrağı Meydanı - Dənizkənarı Bulvar - Bakı Beynəlxalq Dəniz Vağzalı - Neftçilər prospekti - Bakı Ağ Şəhər bulvarı - Xəqani Rüstəmov küçəsi - Bakı Ağ Şəhər bulvarı, 8 Noyabr prospekti, Yusif Səfərov küçəsinin bir hissəsi - Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələrinin kəsişməsi, Cavanşir körpüsündən keçməklə Üzeyir Hacıbəyli küçəsi - Neftçilər prospekti (Hökumət Evi, Muzey Mərkəzi, Kukla Teatrı, Qız qalası, Azneft dairəsi), Bakı Funikulyoru, Bayıl dairəsi, Bibiheybət yolu (Su İdman Sarayı) və Dənizkənarı bulvar boyunca (Su İdman Sarayının arxası, Bakı Kristal Zalı) - Dövlət Bayrağı Meydanı marşrutu üzrə yürüş ediblər.

Qeyd edək ki, 2016-cı ildən təşkil olunan Bakı marafonu idmanın inkişafına dəstək, sağlam həyat tərzinin təbliği məqsədi daşıyır. "Bakı Marafonu-2022"də daun sindromlu və fiziki məhdudiyyətli şəxslər də iştirak ediblər. Yarış zamanı ilk start daun sindromlu şəxslər, daha sonra isə fiziki məhdudiyyətli şəxslər üçün verilib. Üçüncü start isə ümumi iştirakçılar üçün olub.

Marafonun qalibləri iki kateqoriya üzrə seçilib. Kişilər arasında rusiyalı Rinas Axmadeyev birinci olub. Türkiyə təmsilçisi Ömər Alkan yarışı ikinci, çexiyalı Vladimir Marçik üçüncü pillədə başa vurub.

Qadınların mübarizəsində Ukrayna atleti Valentina Veretskaya fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Türkiyəli Dilek Öztürk və Valentina Poltavskaya (Ukrayna) ilk üçlükdə yer alıblar.

Marafonun qalibinə 3000, ikinci yeri tutan iştirakçıya 2000, üçüncü yerin sahibinə isə 1000 manat məbləğində pul mükafatları verilib. Mükafatçılar, həmçinin medal və sertifikatlarla təltif ediliblər. Finiş xəttini keçən ilk 1000 iştirakçı isə "Bakı Marafonu-2022"nin xüsusi medalları ilə təltif olunub. "Bakı Marafonu-2022"də yeni nominasiyalar - qadın və kişilər arasında 5 yaş kateqoriyası (18-29, 30-39, 40-49, 50-59, 60+) üzrə qaliblər seçilib.

Bundan əlavə, qadın və kişi kateqoriyaları üzrə tələbələr arasında finiş xəttini ilk keçən "Gənc ol" (Azercell), eləcə də "finiş xəttini ilk keçən ən yaşlı iştirakçı", "finiş xəttini ilk keçən korporativ iştirakçı", "ən kreativ kostyum" nominasiyalarında da mükafatlar verilib.

"Bakı Marafonu-2022"nin eksklüziv tərəfdaşı "Azercell Telekom" şirkətidir. Marafon Dənizkənarı Bulvar İdarəsi və "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə təşkil olunub.

Marafon iştirakçıları, şəhər sakinləri və qonaqlar üçün Dövlət Bayrağı Meydanında əyləncə zonası da yaradılıb. Burada yarış ərzində müxtəlif əyləncə, konsert proqramları, yarışlar, idman tədbirləri keçirilir.

Qeyd edək ki, bu cür marafonlar indiyədək Barselona, Berlin, Boston, Çikaqo, İstanbul, London, Nyu-York, Paris və digər şəhərlərdə təşkil olunub. Tam marafon yarışının məsafəsi 42 kilometr, yarı marafonun məsafəsi isə 21 kilometrdir. Layihə Azərbaycanda region sakinləri tərəfindən böyük maraqla qarşılandığından 2017-ci ildə Gəncə şəhərində də yarımarafon təşkil olunmuşdu.

# Pəhləvanlarımız "Çempionlar" turnirindən 24 medalla qayıdıblar

Türkiyənin Antalya şəhərində keçirilən güləş üzrə "Çempionlar" turnirinə yekun vurulub. Yarışda güləşin hər üç növündə mübarizə aparan pəhləvanlarımız 11-i qızıl, 5-i gümüş və 8-i bürünc olmaqla, ümumilikdə 24 medal əldə ediblər.

Yunan-Roma güləşində Fərid Sadıxlı (55 kq), Elmir Əliyev (60 kq), Ziya Babaşov (63 kq), Qurban Qurbanov (72 kq) və Laçın Vəliyev (87 kq) qızıl medallara sahib çıxıblar. Urfan Həsənli (72 kq) və Rauf Əliyev (82 kq) gümüş, Ruslan Nurullayev (72 kq) və Nihad Quluzadə (60 kq) isə bürünc medal əldə edib.

Beləliklə, yarışı 5 qızıl, 2 gümüş və 2 bürünc medalla başa vuran klassiklərimiz komanda hesabında ikinci yeri tutublar.

Qadın güləşində isə Elnurə Məmmədova (55 kq), Birgül Soltanova (62 kq) və Mərziyə Sadıqova (72 kq) çempion olublar. Əsmər Canqurtaran (50 kq) və Gültəkin Şirinova (53 kq) ikinci yeri tutublar. Nigar Mirzəzadə (68 kq) isə yarışı bürünc medalla başa vurub. Yekunda 3 qızıl, 2 gümüş və 1 bürünc medal qazanan yığmamız komanda hesabında ikinci yerə sahib çıxıb.

Sərbəst güləş yarışlarında isə pəhləvanlarımızdan Ceyhun Allahverdiyev (61 kq), Sabir Cəfərov (70 kq) və Səbuhi Əmiraslanov (79 kq) qızıl, Kənan Heybətov (70 kq) isə gümüş medala layiq görülüb. Əbülfəz Nəsirov (65 kq), Maqomed-Başir Xaniyev (70 kq), Soslan Tigiyev (79 kq), Fərid Cabbarov (86 kq) və Abdulcəlil Şabanov (92 kq) isə bürünc medala sahib çıxıblar.

Ümumilikdə 3 qızıl, 1 gümüş və 5 bürünc medal əldə edən komandamız ənənəvi yarışı dördüncü pillədə başa vurub.

## *Stend atıcılığı üzrə ölkə kuboku yekunlaşıb*

Mayın 12-15-də Bakı Atıcılıq Mərkəzində stend atıcılığı üzrə ölkə kuboku yarışı keçirilib. Yarış stend atıcılığının səngər və dairəvi növlərində - kişilər, qadınlar və qarışıq komanda kateqoriyalarında keçirilib. Turnirdə ölkəmizin müxtəlif şəhər və rayonlarından, ümumilikdə 41 idmançı iştirak edib. Yarışda fərqlənən idmançılar diplom və medallarla təltif olunublar.



## Bədii gimnastlarımız yubiley medalı ilə təltif olundular

Azərbaycanın müdafiə sənayesi naziri, Milli Qəhrəman, Azərbaycan Velosiped Federasiyasının prezidenti Mədət Quliyev aprelin 22-dən 24-dək Bakıda keçirilən bədii gimnastika üzrə dünya kuboku yarışlarında uğurla çıxış edərək 1 qızıl, 1 gümüş medal qazanan qrup hərəkətləri üzrə yığma komandamızın üzvləri ilə görüşüb. Görüşdə gənclər və idman naziri Fərid Qayıbov, nazir müavini Mariana Vasileva da iştirak ediblər. Görüş çərçivəsində M.Quliyev qrup hərəkətləri üzrə yığma komandanın üzvləri Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinanı "Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edib.



Tədbirdə, həmçinin Azərbaycan Gimnastika Federasiyasının bədii gimnastika üzrə yığma komandasının məşqçiləri Siyana Vasileva, Səbinə Qaratova, hakim Yevgeniya Vilyayeva, baş xoreoqraf Kamil Quliyev və baş katib Nurlana Məmmədzadəyə də yubiley medalları təqdim olunub.

Daha sonra çıxış edən M.Quliyev ölkəmizdə idmana dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan söz açıb, bu sahədə əldə olunan nailiyyətlərdən danışıb. Qeyd edib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının rəhbərliyinə gəlişindən sonra ölkəmizdə gimnastika sahəsində qısa müddət ərzində yüksək nailiyyətlər əldə olunub. M.Quliyev qrup hərəkətləri üzrə yığma komandamızın Bakıda keçirilən dünya kuboku yarışlarında qızıl və gümüş medallar qazanmasını bu uğurların nəticəsi kimi dəyərləndirib.

Görüşün sonunda M.Quliyev gimnastların ona ünvanladığı sualları cavablandırıb, keçdiyi həyat yolundan maraqlı məqamları bölüşüb.

* * *

Azərbaycan Gimnastika Federasiyası milli yarışlar mövsümünü aerobika gimnastikası üzrə Azərbaycan çempionatı və Bakı birinciliyi ilə davam etdirəcək. Mayın 25-də Bakı Olimpiya İdman Kompleksində keçiriləcək yarışda "Ocaq Sport" klubu, "Zirvə", "Grasiya" idman klubları və Sumqayıt Olimpiya İdman Kompleksindən 80 gimnast medallar uğrunda mübarizə aparacaq.

İdmançılar Bakı birinciliyində balacalar, uşaqlar, yeniyetmələr və gənclər, Azərbaycan çempionatında isə yeniyetmələr, gənclər və böyüklər yaş kateqoriyalarında mübarizə aparacaqlar.

Gimnastlar müvafiq yaş kateqoriyalarına uyğun olaraq fərdi, qarışıq cütlük, üçlük və qrup proqramında çıxış edəcəklər.

Gimnastikasevərlər bu dəfə də ölkəmizdə 2013-cü ilin sonlarından inkişaf edən aerobika gimnastikası üzrə yarışlarda yaşanacaq həyəcanlı anlara şahidlik etmək imkanı qazanacaqlar.

## *Azərbaycan Qran-Prisinə gerisayım başladı*

Avtoidmanın zirvəsi sayılan 2022-ci il Formula 1 Azərbaycan Qran-Prisinin Bakı küçələrinə qayıtmasına bir aydan da bir qədər az vaxt qalıb. 10-12 iyun tarixlərində həftəsonu keçiriləcək, F1-in ən həyəcanlı və gözlənilməz yarışına azarkeşləri qəbul edəcək Bakı Şəhər Halqası sonuncu hazırlıqlarını tamamlayır.

Bakı Şəhər Halqasından verilən məlumata görə, 2019-cu ildən bəri tribunalara yenidən qayıdan azarkeşlər builki yarışa xüsusi rəng qatacaq. Həyəcanlı mübarizə ilə yanaşı, azarkeşlər həftəsonu Bakının Dənizkənarı Milli Parkı boyunca uzanan əyləncə zonalarını da kəşf edəcəklər. Azarkeşlərin gözlədiyi avtoqraf sessiyaları və Pit zolağı gəzintisi onlara F1 super ulduzları və komandalarını yaxından görmək imkanı yaradacaq.

2016-cı il debütündən bəri dünya F1 azarkeşlərinin sevimlisinə çevrilən Bakı Şəhər Halqası F1 tarixində ən yaddaqalan və dramatik yarışlara ev sahibliyi etməklə dünyanın aparıcı F1 pilotlarını sınaq qarşısında qoyur. Yarış bolidlərinin 366 kilometr-saat sürətlə rekord həddə çatdığı, 2 kilometr uzunluğunda düz yolu və UNESCO-nun mədəni irs nümunəsi İçəri Şəhər Qala divarları qarşısından keçərək dar yolları aşan, dolama döngələri ilə tanınan Bakı Şəhər Halqası qısa müddətdə bugünkü F1 təqvimində ən çətin treklərdən biri kimi öz yerini təsdiqlədi.

Bakı trekində heç bir pilot iki dəfə qalib gəlməyib, son beş yarışda beş fərqli qalib müəyyən olunub.

Bu il də ötən illərdə yaşanmış gözlənilməz anlar, rəqabət doğuran və saysız-hesabsız həyəcanlı hadisələr Bakı yarışında istisna olunmur. Təsadüfi deyil ki, 2021-ci ildə finiş xəttinə üç dövrə qalmış Maks Ferstappenin qəzaya uğraması, Luis Hemiltonun restartda ona baha başa gələn səhvi Red Bull komandasının pilotu Serxio Peresin qələbəsinə təkan verdi.

Bakı Şəhər Halqasının icraçı direktoru Arif Rəhimov çoxdandır gözlənilən F1-in Bakıya tam qayıtması barədə qeyd edir: "Bütün biletlərin alınacağına ümid edir, izdihamı qarşılamağı səbirsizlə gözləyirik. Beş yarışda beş fərqli qalibimizin olması çox gözəldir. Formula 1 azarkeşləri bu yarışı qaçırmamalıdır. Mövsümün ən gözlənilməz yarışı onu çox həyəcanlı edir".

Formula 1 yarışına əlavə olaraq, azarkeşlər Luis Hemilton, Şarl Lekler, Corc Rassel və Lando Norris kimi Formula 1 ulduzlarının bir çoxunu yetişdirən, olduqca populyar Formula 2 seriyasının geri dönüşündən də həzz ala bilərlər.

* * *

Bakıda keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisinə hazırlıq işləri çərçivəsində "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin nəzdində Bakı Marşal Klubu marşallar və şirkətin əməkdaşları üçün genişmiqyaslı təlim keçirilib. Təlimin keçirilməsində məqsəd yarışlar zamanı fövqəladə hal yarandıqda əməliyyat və qarşılıqlı fəaliyyət planlarının reallığının yoxlanılması, yaranacaq təhlükəli halların qarşısının alınması və nəticələrin operativ şəkildə aradan qaldırılması üçün marşalların peşəkarlığının daha da artırılmasıdır.

Avropa Oyunları Parkında yerləşən Bakı Marşal Mərkəzində təşkil olunmuş təlim nəzəri və praktiki hissələrdən ibarət olub. Nəzəri hissədə Formula 1 Azərbaycan Qran-Prisinin idarə olunması prosesində əsas məqamlar, cari mövsümün strateji və texniki yenilikləri təlim iştirakçılarının diqqətinə çatdırılıb.

Praktiki hissədə təlim üçün salınmış xüsusi simulyasiya trekində marşallar texniki bacarıqlarını real olaraq tətbiq ediblər.

Sonda Azərbaycan Avtomobil Federasiyasının drift və volkikar yarış maşınlarından ibarət şou və mini yarış simulyasiyaları nümayiş etdirilib.

Qeyd edək ki, Formula 1 Azərbaycan Qran-Prisində 1400 marşal iştirak edəcək.

Bizim müsahibə

# Fərid Xəlilov: "İnanırıq ki, gördüyümüz işlər uğurlu nəticələrini verəcək"



Ötən ilin noyabr ayından başlayaraq ölkəmizdə fəaliyyət göstərən bir sıra idman federasiyalarının hesabat-seçki konfransı keçirildi. Bəzi federasiyalarda yeni prezident seçkiləri oldu. Bəzi federasiyaların rəhbəriyinə yenidən etimad göstərildi. Belə federasiyalardan biri də Azərbaycan Voleybol Federasiyasıdır. Gənclər və İdman Nazirliyinin inzibati binasında keçirilən hesabat-seçki konfransında "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov yenidən Azərbaycan Voleybol Fedrasiyasının prezidenti seçildi. Seçkilərdən sonra struktur dəyişikliyi həyata keçirildi və federasiyanın yeni planları müəyyənləşdirildi.

Bu yaxınlarda Azərbaycan Voleybol Federasiyasının yeni seçilmiş baş katibi Fərid Xəlilovla görüşdük, federasiyanın fəaliyyəti, qarşıdakı planları və voleybolçularımızın mötəbər yarışlara hazırlığı ilə bağlı məlumatlar əldə etdik. Ötən ilin sonunda "Azərreyl" klubunun prezidenti vəzifəsindən federasiyanın baş katibi vəzifəsinə təyinat alan Fərid Xəlilovla müsahibəni oxucularımızla bölüşürük.

***- Fərid müəllim, ötən ilin noyabr ayında Azərbaycan Voleybol Federasiyasında keçirilən prezident seçkilərindən sonra yenidən Cavid Qurbanova etimad göstərildi. Sizcə, federasiyanın bundan sonrakı fəaliyyəti əvvəlki illərdən nə kimi yeniliklərlə fərqlənəcək?***

- Cavid müəllimə yenidən etimadın göstərilməsi təsadüfi deyil. Federasiya rəhbərliyinin təqdim etdiyi hesabat və onun voleybol idman növünün inkişafına göstərdiyi diqqət və qayğı bu etimadın təzahürüdür. Bildiyiniz kimi, biz pandemiya dövründən keçdik. Həmin vaxt idman zalları bağlı idi, məşq etmək mümkün deyildi. Lakin buna baxmayaraq, federasiya rəhbərliyi klublara maliyyə dəstəyini dayandırmadı.

Prezident seçkilərindən sonra federasiyanın planlarında müəyyən dəyişikliklər oldu. Bu mövsüm biz daha çox nəticəyönümlü idarəetməyə üstünlük verəcəyik. Komandamızı qarşıdakı aylarda bir sıra mötəbər yarışlar gözləyir. Bunun üçün federasiya olaraq yığma komandalarımıza bu yarışda iştirak etmək üçün hər cür dəstəyi göstərməyə hazırıq. Çalışacağıq ki, nailiyyətlərimiz yüksək və davamlı olsun. İnanırıq ki, gördüyümüz işlər uğurlu nəticələrini verəcək.

***- Ötən ilin dekabr ayında federasiyanın baş katibi vəzifəsinə təyin olundunuz. Buna qədər isə "Azərreyl" klubunun prezidenti vəzifəsini icra edirdiniz.***

- Sonuncu mövsümdə çempionatın vəziyyətinə baxsaq görərik ki, "Azərreyl" komandası 7 oyundan 7 qələbə qazanıb. Biz həmin dövrdə təhlillər aparırdıq. Bunun əsasında komandanın büdcəsi və nəticələri arasındakı balansı qorumağa çalışırdıq. Əgər biz buna nəzər salsaq görərik ki, "Azərreyl" digər komandalardan çox fərqlənirdi. Bu gün biz həmin siyasəti milli komandada tətbiq edirik. Yəni çalışırıq ki, həm nəticə qazanaq, həm də çox israfçılığa yol verməyək.

***- Fərid müəllim, bir neçə gündən sonra 22 yaşadək oğlanlardan ibarət voleybol millimiz Kosovoda Avro-2022-nin təsnifat mərhələsində iştirak edəcək. Baş katib kimi komandamızın yarışa hazırlığı və qrupdakı rəqibləri barədə fikirlərinizi bilmək maraqlı olardı.***

- Yarışa hazırlıqlar yüksək səviyyədə davam edir. Türkiyədə keçiriləcək son hazırlıq mərhələsindən sonra komandamız mayın 19-da yarış üçün Kosovoya yollanacaq. Bu yarışda əsas məqsəd komandamızın təcrübə toplamasıdır. Onlar əldə etdikləri təcrübə sayəsində növbəti yarışlarda komandamıza yeni nailiyyətlər qazandıracaqlar. Komandanı yeni tərkibdə formalaşdırmışıq. Millimiz üçün bu yarış ilk ciddi sınaq olacaq. Ona görə də komandamızdan sürprizlər gözləyirəm. Fikrimcə, qrupun favoritlərindən olan Niderland güclü və təcrübəli heyətə sahibdir. Slovakiya da zəif komanda deyil. Onlar illərlə Avropada bir-biri ilə oynayaraq təcrübə qazanmış komandalardır. Kosovo komandası isə ev sahibidir və buna görə də onları zəif hesab etmək olmaz.

***- İstərdik ki, bir müddət əvvəl başa çatmış ölkə çempionatı haqqında danışasınız. Yəqin ki, siz də bu yarışda maraqlı və sürpriz nəticələrlə qarşılaşdınız?***

- Bəli, qadınların yarışında "Abşeron" komandasının tarixdə ilk dəfə ölkə çempionu olması bizim üçün sürpriz oldu. Bu gözlənilməz nəticə olsa da, çox sevindiricidir. İdmanda belə sürprizlərin olması pozitiv xarakter daşıyır. Deməli, çempionatda şəffaflıq var və hər bir komandanın qalib olmaq şansı var. Yarışdan əvvəl "Azərreyl" favorit kimi göstərilirdi. Amma "Abşeron" komandası əvvəldən sonadək gözəl oyun nümayiş etdirdi.

Oğlanların mübarizəsində isə bir sıra gənc idmançılar üzə çıxdı. Onlardan biri Aslan Həmidov, digəri isə Yusif Bünyatovdur. Aslan Həmidov, peşəkar voleybola mən "Azərreyl"də prezident olduğum dövrdə gəlib. Həmin vaxt biz Şəkidə məşqçilərlə danışıb, onu "Azərreyl"ə gətirmişdik. Pandemiyadan sonra isə o, "Murov" klubunun heyətində yer aldı. Bu çempionat göstərdi ki, Aslanın oyun və hazırlıq səviyyəsi daha da yüksəlib. Ona görə də o, milli komandanın heyətində yer alıb. Eləcə də Yusif Bünyatov. Yusif bu mövsüm Cəlilabaddan gəlib, özünü yaxşı tərəfdən göstərib. Nəticə olaraq isə milli komandaya dəvət alıb. Sözsüz ki, onlarla yanaşı, hər bir idmançının nailiyyəti bizim üçün çox vacibdir.

***- Yeri gəlmişkən, federasiya bölgələrdə uşaq voleybolunun inkişafı üçün hansı tədbirlər həyata keçirir?***

- Ölkəmizdə voleybolu çox sevirlər. Buna görə də hər bir rayonda bu idman növünə maraq böyükdür. Bəzi rayonlar var ki, oradan bizə oyunçular gəlir. Biz əsas gücü hələ ki, həmin regionlara vermişik. Məsələn, Cəlilabad və Masallıdan daha çox istedadlı oğlan voleybolçular çıxır. Bundan başqa ötən ay Gəncə şəhərinə səfər etmişdim. Orada da yaxşı gənc voleybolçular yetişir. Həmçinin Şəkini də, Mingəçeviri də bu siyahıya əlavə etmək olar. Həmin regionlarda olan məşqçilərlə sıx təmasda oluruq. Biz bu bölgələrdə zallarla tanış olub, problemlərlə yerində maraqlanırıq. Federasiya olaraq onlara dəstək olacağıq. Məqsədimiz ölkə səviyyəsində məktəb yarışlarına nəzarət edərək, seçilmiş uşaqları Bakıya gətirməkdir. Paytaxtda isə mövcud olan təcrübə əsasında onlara müəyyən səviyyədə dəstək olub, sosial şəraitlərini təmin edirik.

***- Avqust və sentyabr aylarında milli komandalarımız Avropa çempionatının təsnifat mərhələsində və V İslam Həmrəyliyi Oyunlarında iştirak edəcək. Bu məsul yarışlara hazırlıq necə gedir və əsas gözləntilər nədən ibarətdir?***

- Bəli, həmin ərəfə bizim üçün çox məsul yarışlarla əlamətdar olacaq. Komandamız əvvəlcə İslam Həmrəyliyi Oyunlarında iştirak edəcək. Ardınca isə AVRO-2023-ün təsnifat mərhələsinin oyunları keçiriləcək. Bir sözlə, avqust-sentyabr ayları komandamız üçün gərgin keçəcək. Bu, bir tərəfdən idmançılarımızın təcrübəsi və hazırlıq səviyyəsi üçün yaxşıdır. Amma digər tərəfdən ardıcıl oyunlar komandada voleybolçuların zədələnməsinə gətirib çıxara bilər. Biz bunu da diqqətdən kənarda qoymuruq. Çalışacağıq ki, voleybolçularımıza dəstək olaq. İnanıram ki, bu fəallıq və oyunlar bizə təcrübə qazandıracaq.

Qrupdakı rəqiblərə gəlincə isə fikrimcə, Avropa çempionatının təsnifat mərhələsində kişilərin qrupu bir qədər çətindir. Onlar Türkiyə və Danimarka komandaları ilə eyni qrupda yarışacaqlar. Rəqiblərimiz kifayət qədər güclüdür. Qadınlardan ibarət komandamızın isə perspektivləri daha çoxdur. Qrupa nəzər salanda inanıram ki, yaxşı nəticələr əldə edə bilərik. İslam Həmrəyliyi Oyunlarına gəldikdə isə qadınlardan ibarət komandamız Bakı-2017-də birinci, kişilərdən ibarət millimiz isə ikinci yeri tutmuşdu. İnanıram ki, biz V İslam Həmrəyliyi Oyunlarından da Vətənə medalla qayıdacağıq.

***- Ola bilərmi ki, komandamız bu yarışlardan birində əsas, digərində isə ikinci heyətlə təmsil olunsun?***

- Ümumiyyətlə, bununla bağlı Gənclər və İdman Nazirliyində keçirilən iclasda həmin məsələlər öz həllini tapdı. İslam Həmrəyliyi Oyunları digər idman yarışları ərəfəsinə düşdüyü üçün bir qədər təqvimdə sıxlıq var. Bunun üçün də federasiyalara İslam Həmrəyliyi Oyunlarında və digər yarışlarda iştirak edib-etməyəcəyi və hansı heyətlə təmsil olunacağı ilə bağlı suallar verildi. Biz də çalışacağıq ki, bu yarışlarda maksimum səviyyədə əsas heyətdən faydalanaq.




***- Bu mövsüm voleybol üzrə Azərbaycan yığmaları Avropa Liqasında iştirak etmədilər. Bu növbəti mövsüm üçün də keçərli olacaq?***

- Belə yarışlar kommersiya xarakterlidir. Həmin turnirlərdə nəticə əldə etmək kifayət qədər çətindir və oranın xərcləri də yüksəkdir. Bu yarışda iştirak edən komandaların əsas məqsədi odur ki, qalib olaraq pul mükafatına sahib olsun. Fikrimcə, bizdə əgər bu ehtimal yoxdursa, həmin turnirlərdə iştirak edib, əbəs yerə vəsait itirməyə dəyməz. Biz bu vəsaiti daha səmərəli şəkildə istifadə edə bilərik.

***- Bildiyimizə görə Avropa Voleybol Konfederasiyasının (CEV) prezidenti Aleksandr Boriçiç və CEV rəsmiləri ölkəmizə səfər edəcəklər. İstərdik ki, səfərin tarixi və əhəmiyyəti barədə məlumat verəsiniz.***

- Beynəlxalq qurum rəsmilərinin səfəri may ayının sonu, iyunun əvvəllərində olacaq. Səfərin müzakirə mövzuları isə Azərbaycanda voleybolun inkişaf strategiyası ilə bağlıdır. Avropa Voleybol Konfederasiyası bizə çox dəstək olur. Onlar çalışırlar ki, Azərbaycan klubları yenidən Avropada oynasınlar, millimiz yenə qələbələr qazansın. Bundan başqa uşaq voleybolunun inkişafı, həm də əsas komandalarımızın Avropadakı çıxışları onları maraqlandıran məsələlərdəndir. Buna görə də biz öz strategiyamızı Avropa Voleybol Konfederasiyasının rəhbərliyi ilə müzakirə edəcəyik. Sözsüz ki, onlardan bu sahədə müəyyən dəstək istəyəcəyik. Biz də Avropa voleybolunun ayrılmaz bir hissəsiyik. Onlar digər ölkələrə necə dəstək olursa, bizə də dəstək olacaqlar. Ona görə çalışacağıq ki, işimizi planlı şəkildə və birgə quraq.

***- Gələcəkdə Azərbaycan çempionatı üçün klubların artırılması məsələsi planlaşdırılırmı?***

- Bəli, bu məsələlər hazırda geniş müzakirə olunur. Gəncə səfərim zamanı orada "Gəncə" idman klubunu gördüm. O klubda müxtəlif idman növləri ilə məşğul olan gənclər var. Biz artıq bu barədə razılığa gəlmişik ki, onlar voleybol üzrə Azərbaycan çempionatında təmsil olunsun. Bununla yanaşı, Bakıdan da həm kişi, həm də qadınlardan ibarət bir neçə komanda Yüksək liqada iştirak etmək üçün müraciət edib.

***- Fərid müəllim, işğaldan azad olunmuş ərazilərdə hansısa bir yarış təşkil etmək mümkündürmü?***

- Bəli, hansısa turnirləri və ya çempionatın bir turunu orada sala bilərik. Suqovuşanda meydançalar var. Biz müəyyən məsələləri həll etsək, çimərlik voleybolu turnirini orada keçirə bilərik.

*Azər Əlizadə*

## Voleybolçularımız Avropa çempionatının təsnifat mərhələsinə hazırlaşırlar

22 yaşadək oğlan voleybolçulardan ibarət Azərbaycan milli Avropa çempionatının seçmə mərhələsinə hazırlıq prosesini davam etdirir. Komandamız qitə çempionatının seçmə mərhələsi çərçivəsində E qrupunda Kosovo, Niderland və Slovakiya milliləri ilə bir qrupda mübarizə aparacaq. Aprelin 29-dan başlayan yarışın hazırlıq mərhələsi Bakıda "Murov" voleybol klubunun və "Sərhədçi" Olimpiya İdman Mərkəzinin zallarında təşkil olunub. Hazırlıq prosesində 16-17 voleybolçu iştirak etsə də, yarışa bu voleybolçulardan yalnız 12 nəfəri aparılacaq. Komandamızın hazırlıq prosesi ilə tanış olmaq üçün "Sərhədçi" Olimpiya İdman Mərkəzində olduq. Gənclərdən ibarət milli komandanın köməkçi məşqçisi Fərid Cəlalov yığmamızın yarışlara yüksək səviyyədə hazırlaşdığını bildirdi.



"22 yaşadək oğlan voleybolçulardan ibarət millimiz mayın 20-22-də Avropa çempionatının seçmə mərhələsi çərçivəsində Kosovoda keçirilən yarışlarda iştirak edəcək. Komandamız yarışda E qrupunda mübarizə aparacaq və Kosovo, Niderland, Slovakiya yığmaları ilə qarşılaşacaq. Məşqlərə çempionatada iştirak edən yerli oyunçularımız cəlb olunub. Heyətdə əsasən, "Murov" və MOİK komandalarının tərkibində çıxış edən voleybolçular üstünlük təşkil edirlər. Təəssüf ki, hazırda komandamızın heyətində bir neçə zədəli voleybolçular var. Onlar zədələrə görə bu gün bizimlə deyil və yarışda iştirak edə bilməyəcəklər. Bu isə komandamız üçün bir qədər çətinlik yaradacaq. Lakin bununla belə, komandamızın sona qədər layiqli mübarizə aparacağına və gözəl oyun nümayiş etdirəcəyinə inanırıq. Qələbə üçün tam gücümüzlə mübarizə aparacağıq. Çalışacağıq ki, ölkəmizin idman şərəfini layiqincə qoruyaq", - deyə Fərid Cəlalov qeyd etdi.

Yığma komandanın köməkçi məşqçisi həmçinin millimizin qrupdakı rəqiblərini də dəyərləndirdi. Qrupun əsas favoritinin Niderland millisi olduğunu deyən F.Cəlalov ev sahibi Kosovonun da sıradan bir rəqib olmadığını vurğuladı: "Yarışlar Kosovoda keçiriləcək. Buna görə də onlar əlavə üstünlüyə malikdirlər. Bundan başqa qrupun digər komandaları olan Niderland və Slovakiya yığmaları da bizim üçün əsas rəqiblərdən sayılır. Sözsüz ki, əsas favorit Niderland millisidir. Çalışacağıq ki, bütün rəqiblərə qarşı, tam gücümüzlə mübarizə aparaq və meydandan uğurlu nəticə ilə ayrılaq. Heç kim Kosovaya uduzmaq üçün getmir. Hər bir voleybolçumuz çox istəklidir. İnanıram ki, onlar ən yaxşı oyunlarını göstərəcəklər. Ən əsası isə bu yarış voleybolçularımız üçün böyük təcrübə olacaq".

Komandamızın üzvü Mais Verdizadə isə Avropa çempionatının seçmə mərhələsinə hazırlıqla bağlı danışarkən məşqlərin yüksək səviyyədə keçdiyini və komandada əhval-ruhiyyənin yüksək səviyyədə olduğunu bildirdi. "Hazırlıqla bağlı hər şey qaydasındadır. Bizə yaradılan şəraitə görə federasiya rəhbərliyinə və məşqçilərimizə minnətdarlığımı bildirirəm. Məşqçilərimizin köməkliyi ilə hər ötən gün daha yüksək formaya çatmağa çalışırıq. Komandamızın heyətində əhval-ruhiyyə yüksək səviyyədədir. Çalışacağıq ki, Kosovoda keçirilən yarışlarda uğurla çıxış edək. Rəqiblərimizi yaxşı tanıyırıq. Ən güclü rəqibimiz Niderland millisidir. Onlar sonuncu Avropa çempionatının qalibidirlər. Amma bütün gücümüzlə çalışacağıq ki, Kosovoda layiqli mübarizə aparaq", - deyə Mais Verdizadə qeyd etdi.

Komandamızın digər perspektivli gənc idmançısı Yusif Bünyatov isə bu yarışın onlar üçün böyük təcrübə olacağını bildirdi: "Məşqlərimiz yüksək səviyyədə davam edir. Yarışlara gənc heyətlə hazırlaşırıq. Bu, bizim ilk beynəlxalq yarışımızdır. Məlum olduğu kimi, Niderland və Slovakiya yığmaları qrupun ən güclü komandalarıdır. Bununla Kosovo millisini zəif rəqib hesab etmək istəmirəm. Onlar ev sahibi kimi, güclü dəstək alacaqlar. Bu da Kosovo komandasına əlavə güc verəcək. Amma bununla belə, yaxşı çıxış edəcəyimizə inanıram. Bu yarış bizim üçün böyük təcrübə olacaq. Çalışacağıq ki, Kosovoda səhvsiz mübarizə aparaq".

Qeyd edək ki, millimiz Bakıdakı hazırlıq prosesini başa vurduqdan sonra mayın 14-də Türkiyəyə yollanıb. Komandamız qardaş ölkədə keçirilən təlim-məşq toplanışı çərçivəsində Türkiyə yığması ilə iki yoxlama oyununda qüvvəsini sınayacaq. Bu yoldaşlıq oyunlarından sonra isə komandamız yarış üçün mayın 19-da Kosovoya yollanacaq. E qrupunda mübarizə aparan millimiz AVRO-2022-nin seçmə mərhələsi çərçivəsində ilk oyununu mayın 20-də Kosovo komandasına qarşı keçirəcək. Komandamız mayın 21-də Niderland, növbəti gün isə Slovakiya yığması ilə qarşılaşacaq. Təsnifat mərhələsində 21 komanda 6 qrupda qüvvəsini sınayacaq. Qrup qalibləri və ən yaxşı ikinci yerin sahibi final mərhələsinə vəsiqə qazanacaq.

*Türkay Niftəliyeva*

## Daun sindromlu uşaqlara dəstək məqsədilə veloyürüş

Azərbaycan Velosiped Federasiyasının təşkilatçılığı ilə daun sindromlu uşaqlara dəstək məqsədilə veloyürüş keçirilib. Azneft meydanından startı verilən veloyürüşdə Azərbaycan Velosiped Federasiyasının prezidenti Mədət Quliyev, daun sindromlu uşaqlara dəstək məqsədilə "Bike Up&Down" layihəsini yaradaraq dünyanın bir çox ölkələrinə velosipedlə səfər edən fransalı cütlük Devi və Emilie Sançis, paravelosipedçilər və həvəskar idmançılar iştirak ediblər. Veloyürüş iştirakçıları Dənizkənarı Bulvarla hərəkət edərək Hərbi Qənimətlər Parkının qarşısında yürüşü başa vurublar.



Tədbir başa çatdıqdan sonra yürüş iştirakçıları xatirə fotosu çəkdiriblər.

Qeyd edək ki, Devi və Emilie Sançis 2022-ci il aprelin 29-da Gürcüstandan Azərbaycana keçib və mayın 7-də Bakıya çatıblar.

Gənclər və İdman Nazirliyinin və Azərbaycan Velosiped Federasiyasının təşkilatçılığı ilə qonaqlar burada bir çox görüşlər keçirib, ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yaradılan şəraitlə tanış olublar. Onlar, həmçinin "Ocaq" Gimnastika İdman Klubunda olub, Respublika Olimpiya Mərkəzində Xüsusi Olimpiya Komitəsinin təşkil etdiyi atletika üzrə yarışda iştirak ediblər.

Cütlük mayın 15-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə təşkil olunan "Bakı Marafonu-2022"də iştirak etdikdən sonra Qazaxıstana yola düşüb.

## Paralimpiyaçı uşaqlar beş idman növündə güclərini sınayıblar

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin təşkilatçılığı, UNICEF-in Azərbaycan nümayəndəliyi və "Azercell Telekom" MMC-nin dəstəyi ilə Paralimpiya İdman Kompleksində Uşaq Paralimpiya Kuboku yarışları keçirilib.



Beş idman növü üzrə keçirilən yarışda respublikanın müxtəlif regionlarından olan paralimpiyaçı uşaqlar iştirak ediblər.

Cüdo, pouerliftinq, stolüstü tennis, taekvondo və üzgüçülük idman növləri üzrə müxtəlif kateqoriyalarda ümumilikdə 100-ə yaxın sağlamlıq imkanları məhdud uşaqların iştirak etdiyi yarışda 21 dəst medal uğrunda mübarizə aparılıb.

Qeyd olunub ki, dünyada ilk dəfə olaraq Uşaq Paralimpiya Hərəkatı 2013-cü ildə Azərbaycanda yaranmışdır. Bu müddət ərzində ölkənin müxtəlif regionlarından minlərlə sağlamlıq imkanları məhdud uşaqlar idmana cəlb edilmiş, professional idmançılar yetişdirilmiş, uşaqların cəmiyyətə inteqrasiyası üçün mühüm işlər görülmüşdür. Tokio 2020 XVI Yay Paralimpiya Oyunlarının qalibi Vəli İsrafilov və həmin Oyunların iştirakçısı Dana Şandıbina da məhz Uşaq Paralimpiya Oyunlarının yetirmələridir.

Uşaq Paralimpiya Komitəsinin idman bölmələrində məşqlərini davam etdirən və müxtəlif yarışlarda yüksək nəticələr əldə etmiş idmançılar Konya 2022 İslam Həmrəyliyi Oyunlarında iştirak edəcəklər. Gələcəkdə isə onlar milli komandalara cəlb olunaraq Paris 2024 XVII Yay Paralimpiya Oyunlarına iştirak üçün hazırlıqlara cəlb ediləcəklər.

## Stolüstü tennisçilərimiz Almaniya və Polşada yarışacaqlar

Stolüstü tennisçilərimiz daha bir ciddi sınaq qarşısındadırlar. Yeniyetmələrdən ibarət seçmə komandalarımız beynəlxalq "Pro Tur" yarışlarında iştirak edəcək. Oğlan tennisçilər mayın 17-dən 19-dək Almaniyanın Berlin şəhərində, 20-dən 22-dək isə Polşanın Vladislava şəhərində təşkil olunacaq turnirlərdə mübarizə aparacaq. Qızlar isə mayın 17-dən 19-dək Vladislavada, 20-dən 22-dək Berlində keçiriləcək yarışda bacarıqlarını göstərəcəklər.

Beynəlxalq turnirlərdə ölkəmizin idman şərəfini oğlanlardan Hüseyn Eylazov, Adil Əhmədzadə, Rüstəm Hacılı və Onur Quluzadə, qızlardan isə Arzu Aslanova, Aylin Əskərova, Yağmur Məmmədli və Mərziyə Nürmətova qoruyacaq.

Qeyd edək ki, stolüstü tennisçilərin bu yarışlarda iştirakı iyul ayında Belqradda keçiriləcək Avropa birinciliyinə hazırlıq xarakteri daşıyır.



## Bakı şəhər çempionatının qalibləri müəyyənləşib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Hövsan Olimpiya İdman Kompleksində üzgüçülük üzrə Bakı şəhər çempionatı keçirilib. Çempionatda 101 nəfər idmançı iştirak edib.



Nəticələrə görə 50 metr məsafəyə arxası üstə üsulla üzgüçülük yarışında Vlastilina Xasyanova (Şüa), Elyar Cahangirbəyov (Sərhədçi), 50 metr məsafəyə sərbəst üsulla Vlastilina Xasyanova (Şüa), Elyar Cahangirbəyov (Sərhədçi), 100 metr məsafəyə brass üsulla Zəhra Əliyeva (Şüa), Murad Habilzadə (Badam İdman Klubu), 100 metr məsafəyə batterflay üsulla Valeriya Vaskovskaya (Təhsil), Onurxan Şahinoğlu (Badam İK), 100 metr məsafəyə sərbəst üsulla Vlastilina Xasyanova (Şüa), Elyar Cahangirbəyov (Sərhədçi) birinci yerlərə layiq görülüblər.

İki yüz metr məsafəyə arxası üstə üsulla üzmək yarışında isə Vlastilina Xasyanova (Şüa), Elyar Cahangirbəyov (Sərhədçi), 200 metr məsafəyə sərbəst üsulla Vlastilina Xasyanova (Şüa), Oqtay Hüseynov (Şüa), 50 metr məsafəyə batterflay üsulla Dana Şandıbina (PK), Onurxan Şahinoğlu (Badam İK), 50 metr məsafəyə brass üsulla Anastasiya Borokina (Şüa), Murad Habilzadə (Badam İK), 100 metr məsafəyə arxası üstə Vlastilina Xasyanova (Şüa), Hüseyn Şamilov (Şüa), 200 metr məsafəyə qarışıq üsulla Vlastilina Xasyanova (Şüa), Oqtay Hüseynov (Şüa) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Sonda yarışın qaliblərinə müvafiq dərəcəli diplomlar və medallar təqdim edilib.

— Mütəxəssis rəyi —

# Tərbiyədə şəxsi nümunə əvəzolunmaz ecazkar qüvvədir

Azərbaycan güləş idmanı tarixinin yaxın keçmişində fərqli xarakterli və iş üslublu məşhur məşqçilərimiz az olmayıb. İlk baxışdan məşqçilər kənardan kobud, özündənrazı təsiri bağışlaya bilər. Lakin əslində onlar cəsur, iradəli, özünün iş metodunun doğruluğunu sübut etməyi bacaran insan kimi diqqəti cəlb edib. Belə insanlar həyatda bacarıqlarını öz işləri ilə təsdiqləyirlər. Ümumiyyətlə, peşəkar məşqçilər yetirmələrinin uğurları üçün əlindən gələni əsirgəməyən insanlar kimi yadda qalır.



Belə məşqçilər arasında İbrahimpaşa Dadaşov, Rza Baxşəliyev, Yaqub Məmmədov, İsak Cəfərov, Fikrət Tairov, Vahid Məmmədov, Elçin Cəfərov, Ağakişi İskəndərov, Xankişi Hüseynov, Emin Ramazanov, Sabir Hüseynov, Əliqulu Həsənoğlu, Xosrov Cəfərov, Məmməd İbrahimov, Firdovsi Umudov, Akif Əliyev və başqalarını misal göstərmək olar.

Məşqçi keçmiş idmançıdır. O, adi peşə təhsilinə malik olub, məşq prosesində, təlim-məşq toplanışlarında yetirmələrini yarışlara hazırlayır. Yetirmələri ilə gündəlik əlaqələri düzgün qurub, onların daxili aləmini öyrənməyə çalışır. Yetirmələrinin fiziki, texniki, taktiki, psixoloji və əqli imkanlarını, qabiliyyətini araşdırır. Məşqçi yetirmələri ilə müxtəlif vəziyyətlərə düşür, yetirməsi məğlubiyyətlə üzləşdikdə o, narahatlıq keçirir. Bu sahədə kifayət qədər təcrübəsi olmayan gənc məşqçi-müəllimlər hətta psixoloji sarsıntı da keçirirlər. Lakin belə vəziyyətlərdə özlərini ələ almağı, düşdükləri vəziyyətdən çıxış yolu tapmağı bacarmalıdırlar.

Yetirməsi yarışlarda nailiyyət qazandıqda məşqçinin üzü gülür, hədsiz dərəcədə sevinir, özünü xoşbəxt sayır, ətrafdakı insanların hörmətini qazanır. Bir sözlə, o, daha da fəallaşır, kamilləşir, sevdiyi işin əsl peşəkarına çevrilir.

Gənc məşqçi-müəllimlər ilk növbədə bilməlidirlər ki, ali təhsil alıb diplom əldə etmək, gələcəkdə illərlə görüləcək gərgin işlərin başlanğıcıdır. Bundan sonra bu sahədə, həyatda qazandığı müvəffəqiyyətlər onun ali məktəbdə qazandığı nəzəri biliklərin təcrübi işdə necə tətbiq etməsindən və bacarığından asılıdır. Məşqçilər həmçinin onu da bilməlidirlər ki, gələcəkdə yüksək nəticələrin əldə edilməsi hər kəsin öz əlindədir. Bu, görəcəyin işə yaranan həvəsdən və özünə inamdan asılıdır. Yüksək nəticələr isə illərlə çəkilən ağır və məqsədyönlü zəhmət hesabına ərsəyə gəlir. Bunun üçün daim çalışmaq lazımdır. Başqa sözlə desək, məşqçi hər gün tələbələrini öyrətməklə yanaşı, özü də öz üzərində çalışmalı və öyrənməlidir.

## Rəqabətdən çəkinən insan heç bir sahədə irəliləyə bilməz

İstənilən sahədə uğur əldə etməyin yolu çalışmaq, oxumaq, gündəlik həyatda yeni biliklər əldə etməkdən ibarətdir. Həyat göstərir ki, ağıllı, savadlı, öz işini dərindən bilən insanlar bəşəriyyətin hərəkətverici qüvvəsidir. Öz üzərində çalışmayan, öyrənmək istəməyən, yerində addımlayan, rəqabətdən çəkinən insan heç bir sahədə irəliləyə bilməz. Müasir dövrün tələbi budur. Təbii ki, bu prinsip idmandan da yan keçməyib. Zaman idman mütəxəssislərindən, məşqçi-müəllimlərdən öz işinə başqa aspektdən yanaşmağı tələb edir. Gənc məşqçi-müəllimlər unutmamalıdır ki, yarışlarda yüksək nəticələrin əldə edilməsi, birinci növbədə, idmanın elmi əsaslandırılmasını və məşqlərdə yeni, mütərəqqi metodların tətbiqini tələb edir. Gənc məşqçilər öyrətmədə və öyrənmədə daim yeni yollar axtarmalıdırlar. Bu sahədə isə öyrənməli metodların hüdudu yoxdur. Unutmaq olmaz ki, hazırkı yeni metodların heç biri daimi və hərtərəfli deyil. Deməli, yenilənməyə ehtiyac var və bunu istənilən vaxt etmək mümkündür. Yetər ki, bu sahədə çalışanlar yenilik axtarışında olsunlar.

İdman məktəblərimizdə tələbkar, öz işini ürəkdən sevən və bu işdən zövq alan məşqçilərimiz az deyil. Çox təəssüf ki, bütün məşqçilər belə deyildir. Bəzi məşqçilər tələbkarlığı kobud da səslənsə başqa cür başa düşürlər. Belə məşqçilər gərgin vəziyyətlərdə, məşqlərdə, yarışlarda emosiyaya qapılaraq, bəzən lazımsız hərəkətlər edirlər. Məşqçilər hər vasitə ilə məşqlərin maraqlı qurulması, səmərəli keçilməsi üçün bütün metodlardan bacarıqla istifadə etməyə çalışmalıdırlar. Müşahidələr göstərir ki,eyni formalı məşqlər, məşqdə eyni hərəkətlərin və fəndlərin lüzumsuz dönə-dönə təkrarlanması uşaqları tez yorur, onları bezdirir. Bu, məşqçinin zəif olduğundan xəbər verir bu uşaqlarda məşqçiyə qarşı inamsızlıq yaradır. Belə məşqlər onlar üçün maraqlı olmur, başqa sözlə desək, məşq öz marağını itirir, nəticədə onlar məşqlərdən yayınır, yüngül əyləncəyə çevrilir. Beləliklə, uşaq məşqi birdəfəlik atır.

Müşahidələr göstərir ki, uşaqların məşqdən uzaqlaşması məşqlərin məhz ilk illərinə daha çox təsadüf edir. Məşqdən uzaqlaşmanın müxtəlif səbəbləri arasında məşqlərin düzgün qurulmaması, maraqlı keçirilməməsidir. Uşaqların məşqlərə cəlb edilməsi, məşqlərin günün tələbləri səviyyəsində qurulması üçün məşqçi daim axtarışda olmalıdır. Buna görə məşqçilər bütün yeniliklərlə maraqlanmalı, keçirilən yarışları izləməli, seminarlarda iştirak etməli, yığma komandaların məşqlərində olmalı, metodiki vasitələrdən istifadə etməli, nəzəri biliklərini daim artırmalıdırlar. Onlar bütün bilik və bacarıqlarını sərf edərək məşğul olanların maraq dairəsini daim yüksəltməyə çalışmalıdırlar. Verilən komandalar və ifadələr uşaqlarda müsbət emosiyalar yaratmalıdır. Əlbətdə, bütün bunlar uşaqların məşqdə fəallığını artırır, onlarda xoş əhval-ruhiyə yaradır. Əksinə, məşqlərdə eyni ifadələrin işlədilməsi və dönə-dönə, yerli-yersiz komandalar verilməsi uşaqların əhval-ruhiyyəsini aşağı salır, onları süstləşdirir, fəallığını azaldır. Məşqçilər, bu baxımdan, həmişə diqqətli olmalıdırlar. Qeyd olunan hallar İbtidai Hazırlıq Qrupunda (İHQ) özünü daha çox büruzə verir. Məşqçilər İHQ üçün illik iş planı tərtib edərkən məşğul olanların yaş qrupunu nəzərə almalı, öyrətmə prosesində təlimin prinsiplərinə əsaslanmalıdırlar. İbtidai hazırlıq qrupunun məşqçilərinə daha səbrli, uşaqlara qarşı diqqətli və mehriban olmaları məsləhət görülür.

Unutmaq olmaz ki, ilk dəfə xalça üzərinə çıxan hər bir uşaq yeni bir aləmə qədəm qoyur. Yeni mühit fiziki və psixoloji cəhətdən hələ tam bərkiməmiş uşağa müxtəlif cür təsir edə bilər. Güləşməyə böyük arzu və istəklə gələn uşaq məşqçinin kiçik diqqətsizliyi və yaxud səhvi üzündən tez bir zamanda məşqdən uzaqlaşa bilər. Məşqçilərə bu dövrdə uşaqlara qarşı daha diqqətli, qayğıkeş və səmimi olmaları məsləhət görülür. Əfsuslar olsun ki, bu, həmişə belə olmur. Etiraf etməliyik ki, bəzi məşqçilərin uşaqlara qarşı adi diqqətsizliyi, kiçik səhvi üzündən hər il yüzlərlə uşaq məşqlərdən uzaqlaşır.

## Fikir bildirməkdə idmançılara həmişə sərbəstlik verilməlidir

Məşqçilər unutmamalıdır ki, uşaqları yoldaşlarının qarşısında utandırmaq və ya ağır söz deməklə onu təhqir etmiş olurlar. Məşqçi, çalışmalıdır ki, idmançıların buraxdığı səhvləri onlara elə çatdırsın ki, onlar səhvi başa düşsünlər və bundan nəticə çıxarsınlar. Görüşlərdə, yarışlarda yetirmələrinin zəif çıxışları və məğlubiyyəti zamanı məşqçinin idmançıya qarşı kobud rəftarı idmançının öz müəlliminə olan inamını sarsıda bilər. Ona görə də, belə məqamlarda məşqçilər daha səbirli və həssas olmalı, emosiyaya qapılmamalı, uşaqların qəlbinə yol tapmaq üçün ən optimal yol seçməyi bacarmalıdırlar. Əlbəttə, o, həmişə yetirmələrinin tərifəlayiq hərəkətlərinə qarşı diqqətli olmalı, onların yaxşı cəhətlərini nəzərdən qaçırmamalı, belə uşaqları lazımınca tərifləməli və yoldaşlarına nümunə göstərməlidir. Müşahidələr göstərir ki, məşqçi-idmançı münasibətlərinin səmimi qurulması nəticəsində idmançı məşqçiyə daha da yaxın olur. O, bilmədiklərini ondan çəkinmədən soruşur, idmançının öz fikrini ifadə etməsi və bacarığını göstərməsi üçün meydan açılır. Bütün bunlarla yanaşı, gənc məşqçi-müəllimlərə məsləhət görülür ki, öz bilikləri ilə heç zaman kifayətlənməsinlər, daim öz üzərlərində çalışsınlar, yeniliklər axtarsınlar, dünya idmanında baş verən hadisələrdən xəbərdar olsunlar və nəhayət, nitq mədəniyyətini daim inkişaf etdirsinlər. Tanınmış rus pedaqoqu Uşinski tərbiyədə şəxsi nümunəni heç bir dərslik, heç bir əxlaqi nəsihət, heç bir cəza, heç bir rəğbətlə əvəz edilə bilməyən ecazkar qüvvə adlandırmışdır. Deməli, məşqçinin şəxsi nümunəsi məşqin keyfiyyətinə də çox böyük təsir göstərir. Gənc məşqçilərə onu da bildirmək istərdim ki, onların uşaqlara hörmətlə yanaşması uşaqlarda inam hissini də gücləndirir. O, həmişə çalışmalıdır ki, hər bir uşaq tək olmadığını, arxasında böyük bir kollektivin durduğunu hiss etsin. Məşqçi tərəfindən uşaqlara elə bir inam aşılanmalıdır ki, onlar bütün dünyanı dəyişməyə qadir olduqlarını hiss etsinlər. Yadda saxlamaq lazımdır ki, belə hisslər uşaqlarda şəxsi yaradıcılıq qabiliyyətini artırır. Məşqçi-müəllimlərin yetirmələrinə qarşı xeyirxah münasibətləri, hörməti, uşaqları olduğu kimi qəbul etməsi, onları daim dəstəkləməsi, onların bacarıqlarına inam vacibdir. Belə olan halda qarşıya çıxan problemlərin həllində məşqçinin göstərdiyi istənilən cəhdi yetirmələri tərəfindən yaradıcı bir fikir kimi qiymətləndiriləcək və onlar məşqçiyə ciddi və hörmətlə yanaşacaqlar. Təlimin psixoloji mühitinin məhz bu şəkildə dəyişdirilməsi halında uğursuzluq qorxusu, inamsızlıq hissi aradan götürülər və məşğul olanların idrak fəallığı məşq boyu lazımi səviyyədə qoruna bilər. Bu yanaşmanın əsas üstünlüyü real idrak fəaliyyətinə əsaslanan təlimdə nəzərdə tutulur. Bu da idrak fəaliyyətinin gedişində uşaqların təfəkküründə, gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Ziddiyyətlərdən yaranan emosiyalar əqli ehtiyatların səfərbərliyini təmin edir, idrak fəaliyyətini şövləndirir, diqqəti uzun müddət cəmləməyə imkan yaradır. Bütün bunlar, öz növbəsində, uşaqların iradi və mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsi, onlarda müstəqil düşünmə, müstəqil öyrənmək, öyrəndiklərinin mahiyyətini şüurlu surətdə başa düşmək, müstəqil fikir söyləmək bacarığı aşılayır.



Məşqlərin necə tələbkarlıqla keçirilməsindən asılı olmayaraq, fikir bildirməkdə idmançılara həmişə sərbəstlik verilməlidir. Bu onların potensial imkanlarını üzə çıxarmaqda xüsusi rol oynayır. Məşqçi-müəllimlər hər vasitə ilə məşqləri bir-birindən maraqlı etməyə çalışmalı, süni problemli situasiyalar yaratmaqla idmançıları düşünməyə vadar etməyi bacarmalıdırlar. Məşqlərdə yaxşı mənada, mübahisəli məsələlər yaratmaqla debatlar, diskusiyalar təşkil edilə bilər ki, bu da öz növbəsində, uşaqlara fikirlərini sərbəst ifadə etmələri, qarşılıqlı fikir mübadiləsi aparmalarına çox kömək edə bilər.



*Hümbət Cavadov,*
*sərbəst güləş üzrə*
*SSRİ idman ustası*



# KİV nümayəndələri atıcılıq yarışında mübarizə aparıblar

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) təşkilatçılığı ilə Kütləvi İnformasiya Vasitələri (KİV) nümayəndələri arasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş VII atıcılıq turniri keçirilib. Yarışda hər birinin heyətində 3 nəfər olmaqla 13 media komandası mübarizə aparıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, general-leytenant Zaur Abdullayev çıxış edib. O, çıxışında ümummilli lider Heydər Əliyevin müəllifi olduğu milli dövlətçilik konsepsiyası və müasir hərb quruculuğu prosesinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini qeyd edib. “2020-ci il sentyabrın 27-də düşmənin təmas xəttində növbəti təxribatına cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi əks hücum əməliyyatı dövlətimizin və ordumuzun gücünü, xalqımızın qüdrətini bütün dünyaya nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qələbə qazanan Azərbaycan Silahlı Qüvvələri işğal altında olan torpaqlarımızı azad edərək ərazi bütövlüyünü bərpa etməyə nail oldu. Ali Baş Komandanın qətiyyəti, xalq və ordunun sarsılmaz birliyi, əsgər və zabitlərimizin Vətən sevgisi zəfərin qazanılmasında mühüm rol oynadı. Ölkə rəhbərliyi başda olmaqla cəmiyyətin hər bir üzvü qələbəyə səfərbər oldu. Eyni zamanda düşmənlə informasiya müharibəsində də üstünlük qazanıldı. Prezident İlham Əliyev dünyanın aparıcı mediasına verdiyi 30-dan artıq müsahibə ilə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları məğlub etdi”, - deyə Zaur Abdullayev bildirib.

Z.Abdullayev çıxışında Vətən müharibəsi dövründə ölkə mediasının kifayət qədər məhsuldar fəaliyyət göstərdiyini, düşmənin mülki əhalini, iri yaşayış məntəqələrini hədəfə alaraq qadağan edilmiş silahlardan istifadə etməklə törətdiyi hərbi cinayətlərin dünya ictimaiyyətinə çatdırılmasında kütləvi informasiya vasitələrinin rolunu da vurğulayıb. O, qeyd edib ki, SHXÇDX mətbuatla əməkdaşlığa hər zaman önəm verir, ölkəmizdə hərbi-vətənpərvərlik tərbiyəsi işinin aparılması, müddətli həqiqi hərbi xidmətə çağırışın təşkilinin işıqlandırılması istiqamətində KİV-in fəaliyyəti yüksək qiymətləndirilir. Zaur Abdullayev çıxışının sonunda ümummilli liderin xatirəsinə həsr edilmiş turniri açıq elan edib, iştirakçılara uğurlar arzulayıb.

Media nümayəndələri təhlükəsizlik qaydaları barədə təlimatlandırıldıqdan sonra yarışa start verilib.

2 mərhələdən ibarət olan yarışda birinci yeri “Report” İnformasiya Agentliyinin komandası tutub. “Azpress.az” saytının komandası ikinci, “Səs” İnformasiya Agentliyinin komandası isə üçüncü yerlə kifayətlənib.

Qaliblər kubok, medal, diplom və pul mükafatları ilə təltif olunublar.

# Tanınmış jurnalist Məzahir Süleymanzadə vəfat edib

Tanınmış jurnalist, AFFA və “Neftçi”nin keçmiş mətbuat xidmətinin rəhbəri Məzahir Süleymanzadə vəfat edib.

“Səhər” qəzetinin təsisçisi və baş redaktoru olmuş Məzahir Süleymanzadə mayın 10-da 70 yaşında dünyasını dəyişib.

Məzahir Süleymanzadə 1952-ci il dekabrın 22-də Bakıda anadan olub. 1970-ci ildə Şamaxı şəhərindəki 1 saylı orta məktəbi bitirib. Ötən əsrin 70-ci illərinin əvvəllərində Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinə rəhbərlik etmiş jurnalist Zaqafqaziya Hərbi Dairəsinin Tbilisidəki Ali Hərbi Müxbirlər məktəbini, Lvov Ali Hərbi-Siyasi Məktəbinin jurnalistika fakültəsini bitirib. 1974-1979-cu illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb.

Müxtəlif illərdə “Leninskoe znamya”, “Krasnaya zvezda”, “İdman” - “Sport”



qəzetlərində, “Sovetski voin” jurnalında çalışıb.

“Kommunist” qəzetində baş müxbir, məsul katib və redaktor müavini vəzifələrini tutub. 1989-cu ildə müstəqil Azərbaycan mətbuatının ilklərindən sayılan “Səhər” qəzetini təsis edib.

Məzahir Süleymanzadə, həmçinin, çoxsaylı kitablar müəllifidir.

1984-1994-cü illərdə “Qızıl qələm”, “Həsən bəy Zərdabi”, “Mirzə Cəlil”, həmçinin “Araz” Ali mükafatına layiq görülüb,

1989-cu ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunub.

Məzahir Süleymanzadə 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə “Əməkdar mədəniyyət işçisi” fəxri adına layiq görülüb.

Allah rəhmət eləsin!

## *Stolüstü tennis ailəsinə ağır itki üz verib*



Azərbaycan idman ictimaiyyətinə itki üz verib. Uzun illər Azərbaycan Stolüstü tennis Federasiyasında müxtəlif vəzifələrdə çalışmış İbrahim Efendiyev 90 yaşında dünyasını dəyişib. Mərhum idman mütəxəssisi 2005-2014-cü illərdə federasiyanın baş katibi, 2014-2019-cu illərdə isə federasiya prezidentinin müşaviri vəzifələrini yerinə yetirib. Azərbaycan Stolüstü Tennis Federasiyası İbrahim Efendiyevin ölümündən kədərləndiyini bildirir, ailə üzvlərinə və yaxınlarına səbr diləyir.

Allah rəhmət eləsin!

# *Bakı Texniki Kollecinin komandası mini futbol turnirinin qalibi oldu*

Azərbaycan Texniki Universitetinin nəzdində olan Bakı Texniki Kollecində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş mini futbol turniri keçirilib. Turnirin açılış mərasimində Bakı Texniki Kollecinin direktoru, professor Akif Cahangirov, YAP Nizami Rayon Təşkilatının sədr müavini Rəşadət Xalıqov, partiyanın əməkdaşı Əli Babazadə, Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi, SSRİ idman ustası, Bakı Texniki Kollecinin Bədən Tərbiyə rəhbəri Aydın Kazımbəyov, kollecin fiziki tərbiyə rəhbəri Səbuhi Əliyev, Hacı Hüseynov, tərbiyə işləri üzrə direktor müavini Mələk Nağıyeva, bir qrup müəllim heyəti və tələbələr iştirak ediblər.

Turnirin final mərhələsindən əvvəl ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən Bakı Texniki Kollecinin direktoru Akif Cahangirov ümummilli lider Heydər Əliyevin müasir Azərbaycan tarixində rolu, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat verib. O, ulu öndərin müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi ilə xalqımızın müstəqillik arzusunun gerçəkləşdirilməsini və möhkəm bünövrə üzərində yenidən qurulmasını təmin edən və bütün həyatını xalqına həsr edən dahi lider olduğunu qeyd edib.



Görkəmli dövlət xadimi Heydər Əliyevin böyük bir epoxanın yaradıcısı olduğunu deyən Akif Cahangirov ulu öndərin bu yolda ardıcıl və məqsədli siyasət nümayiş etdirdiyini, cəmiyyətin hərtərəfli inkişafı sahəsində mühüm nailiyyətlərə imza atdığını bildirib.

Akif Cahangirov həmçinin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan idman siyasətinin bu gün onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini də tədbir iştirakçılarının diqqətinə çatdırıb. O, idman sahəsində qazanılan nailiyyətlər sayəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzlu dövlətlərdən biri kimi qəbul olunduğunu qeyd edib. A.Cahangirov dövlətimizin diqqət və qayğısı ilə əhatə olunan idmançılarımızın bu etimadı layiqincə doğrultduğunu vurğulayıb.

Daha sonra Azərbaycan Texniki Universitetinin nəzdində olan Bakı Texniki Kollecinin və Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin komandaları meydana çıxıblar. Maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən oyunun əsas vaxtı 3:3 hesabı ilə başa çatıb. Qalibin adına penaltilər seriyasında aydınlıq gəlib. Penalti zərbələrini rəqibindən daha dəqiq yerinə yetirən Bakı Texniki Kollecinin komandası qalib adını qazanıb. Çempionluq kubokunu komandanın kapitanı Seymur Məmmədova təqdim edilib.

Qaliblər diplom, medal və kuboklarla təltif olunublar.

*Azər Əlizadə*

## *REDAKSİYANIN POÇTUNDAN*

### Lerikli “Şahinlər”in uğuru

Lerik rayonunu təmsil edən Valeh İbrahimov adına şəhər inteqrasiya təlimli internat tipli gimnaziyasının “Şahinlər” komandası “Şahin” hərbi



idman oyununun Bakı şəhərində keçirilən final mərhələsində uğurla çıxış edib. Bu münasibətlə komandanın üzvləri ilə Lerik Rayon İcra Hakimiyyətində görüş keçirilib.

Tədbirdə Lerik Rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq İsaqov çıxış edib. O, belə yarışların həm yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində, həm də məktəblilərin ordu sıralarında xidmətə hazırlanmasında müstəsna rol oynadığını bildirib. Daha sonra çıxış edən Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev “Şahinlər” komandasını təbrik edib, bu nailiyyətdə əməyi olan hər kəsə təşəkkürünü bildirib. Görüşdə iştirak edən millət vəkili İqbal Məmmədov “Şahin” hərbi idman oyununun respublika final mərhələsində qələbə qazanmış rayonu təmsil edən komandanın üzvlərini təbrik edib, yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsində hərbi idman oyunlarının rolunun əvəzsiz olduğunu söyləyib. “Şahinlər” komandasının üzvləri isə öz növbəsində rayon icra hakimiyyətinin rəhbərliyi tərəfindən bu görüşlərin təşkilinə, göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildiriblər.

Qalib komandanın üzvlərinə rayon icra hakimiyyətinin fəxri fərmanları təqdim edilib.

### “Çempionumuz” sosial idman layihəsi çərçivəsində növbəti görüş

“Çempionumuz” sosial idman layihəsi çərçivəsində tədbirlər davam edir. Növbəti belə bir tədbir Lənkəran şəhər 8 saylı tam orta məktəbdə keçirilib. Şagirdlərin görüşünə gələn qonaqlar isə taekvondo idman növü üzrə yeniyetmələr və gənclər arasında respublika çempionu, beynəlxalq yarışın qalibi, yeniyetmələr arasında dünya üçüncüsü, taekvondo idman növü üzrə milli komandanın kapitanı Nizami Hacıyev, taekvondo üzrə yeniyetmələr və gənclər arasında respublika çempionu və beynəlxalq yarışın qalibi Fərid Əliyev olub.

Məktəbin direktoru İlqar Paşayev tədbirin açılış mərasimində çıxış edərək ölkəmizdə idmana göstərilən diqqət və qayğıdan danışıb. O, şagirdləri sağlam həyat tərzinin təbliğinə həsr olunan belə maarifləndirici tədbirdən faydalanmağa çağırıb. Daha sonra Lənkəran Gənclər və İdman İdarəsinin əməkdaşları Sadiq Həmidov, Yusif Xamiyev çıxış ediblər. Onlar tədbirin məqsədindən, layihənin əhəmiyyətindən, idmanla məşğul olmağın faydalarından danışaraq, şagirdlərə zərərli vərdişlərdən uzaq durmağı, idmanla məşğul olaraq, sağlam həyat tərzi keçirməyi tövsiyə ediblər.

İdmançılar Nizami Hacıyev, Fərid Əliyev və taekvondo idman növü üzrə məşqçi-müəllim Əfqan Rzayev tədbir iştirakçılarına idman sahəsində əldə etdiyi yüksək nəticələrdən söhbət açıb, sağlam həyat tərzi naminə hamını idmanla məşğul olmağa çağırıblar.

Çıxışlardan sonra idmana aid videoçarx nümayiş olunub. İdmançılar şagirdləri maraqlandıran sualları cavablandırıblar.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*




*Bu ilin sonunda futbol azarkeşlərini Qətərdə keçiriləcək dünya çempionatı gözləyir. 4 ildən bir keçirilən dünyanın ən böyük futbol bayramı bu dəfə qış ayında təşkil ediləcək. DÇ-yə 187 gün qalmış "Olimpiya dünyası" qəzeti bu futbol yarışı ilə bağlı xüsusi yazılarla oxucuların qonağı olacaq. Artıq ötən sayımızdan etibarən qəzetimizin səhifələrində bu barədə yazılar dərc etməyə başlamışıq. Budəfəki sayımızda dünya çempionatlarında qeydə alınan maraqlı faktlar əsasında yeni bir yazını çoxsaylı sadiq oxucularımıza təqdim edirik. Bu sayımızı Uruqvayda keçirilən çempionata həsr etmişik.*



**Tarix:** 13-30 iyul
**İştirakçı komandaların sayı:** 13
**Keçirilən matçların sayı:** 18
**Mükafatçılar:** Uruqvay qızıl, Argentina gümüş, ABŞ bürünc
**Ümumi azarkeş sayı:** 590, 549 nəfər (orta hesabla hər oyunda 32,808)
**Vurulan qolların sayı:** 70 (orta hesabla hər oyunda 3,89)
**Ən məhsuldar futbolçu:** Stabile Gilyermo (Argentina) - 8 qol
**Ən yaxşı futbolçu** - Xose Nassasi (Uruqvay)
**Ən yaxşı qapıçı** - Enrike Balyesteros (Uruqvay)

# Qətərə gedən yol Cənubi Amerikadan başlayıb

## Okeanın o tayında futbol bayramı



*Avropalı futbolçular Uruqvay sahillərində*

Futbol üzrə dünya çempionatının ilk ünvanı təbii ki, Uruqvay hesab olunur. Maraqlıdır ki, hələ çempionatın keçirilməsi barədə fikir formalaşanda Avropada buna elə də əhəmiyyət verilmirdi. Bir sözlə, heç kim bu ideyanın həyata keçirilməsində maraqlı deyildi. Çünki həmin ərəfədə "köhnə qitə"lilərin başları öz yerli çempionatlarına qarışmışdı. Belə olduğu təqdirdə, heç kim çempionatları yarımçıq qoyub, uzaq bir məsafədə yarışmağı özünə məsləhət bilmirdi. Amma FİFA-nın üçüncü prezidenti Jül Rime dünya çempionatının keçirilməsi ideyasını bəyənmişdi. Məhz bundan sonra ali qurum rəsmisinin təklifini Avropadan Fransa, Belçika, keçmiş Yuqoslaviya və Rumıniya yığma komandaları qəbul edərək, okeanın o tayına yollanmışdılar. Amma onlardan heç biri bu yarışda mükafatalayiq nəticə göstərə bilməmişdi. Qeyd edək ki, ilk dəfə keçirilən bu turnirdə cəmi 13 yığma komanda qalib adı uğrunda yarışmışdı.

## Şahzadə məşqçidən xüsusi sərəncam

Rumıniya şahzadəsi II Karol dünya çempionatında iştirak edən ölkə yığması ilə xüsusilə maraqlanmışdı. O, hətta məşqçilər heyətinin üzvləri ilə birlikdə Uruqvaya yollanmışdı. Bundan əlavə II Karol sərəncam vermişdi ki, çempionat ərəfəsində futbolçuların bütün xərcləri dövlət hesabına ödənilsin, onlara yüksək maaş təsis olunsun. Bu isə yığma komandanın hər bir üzvünün çempionatda rahat və inamlı çıxış etməsi üçün nəzərdə tutulmuşdu.

## İlk qol və son qarşılaşma

Fransalı Lüsyen Loran dünya çempionatında vurulan ilk qolun müəllifi kimi tarixə düşüb. 13 iyul, 1930-cu il. O, Fransa-Meksika matçının 19-cu dəqiqəsində fərqlənmişdi. Loran növbəti qarşılaşmada Argentina millisi ilə görüşdə ciddi zədələnərək, çempionatda bir dəfə də olsun çıxış edə bilməmişdi. Yeri gəlmişkən qeyd edək ki, o yığma komandanın heyətində elə də məhsuldar çıxışı ilə yadda qalmayıb. Fransalı futbolçu yığmanın heyətində keçirdiyi on görüşdə cəmi iki dəfə fərqlənə bilmişdi. Loran Lüsyen ən uzun ömürlü futbolçulardan biri sayılırdı. O, 97 il yaşayıb. Uzunömürlülüyün sirri ilə bağlı suala Loran cavab verib ki, heç vaxt o dərmandan istifadə etməyib. Baxmayaraq ki, onun oğlu farmakoloq idi. İlk dünya çempionatında iştirak etmiş uzunömürlü futbolçular arasında birinci yerdə isə argentinalı Fransisko Varalyo olmuşdu. O, 2010-ci ildə 100 yaşında dünyasını dəyişmişdi.

## Həmin gün "Sentenario"ya 90 min azarkeş toplaşmışdı

Uruqvayda keçirilən dünya çempionatında bütün qarşılaşmalar paytaxt Montevideoda təşkil edilmişdi. Ölkənin mərkəzi şəhərində yerləşən üç stadion - "Sentenario", "Qran Parke Sentral" və "Positos" yığma komandaların ixtiyarına verilmişdi. Oyunların əsas qarşılaşmaları "Sentenario" stadionunda keçirilmişdi. Bu stadion xüsusi olaraq dünya çempionatı üçün 1 milyon ABŞ dolları müqabilində inşa edilmişdi. "Sentenario"da təşkil olunan final qarşılaşmasında rəsmi olaraq 68 min üçün nəzərdə tutulsa da, həmin gün arenada 90 minə yaxın tamaşaçı bu həyəcanı izləmişdi.



*"Sentenario"nun səmadan görünüşü*

## Arzular heç bir məhdudiyyət tanımır

Uruqvaylı Hektor Kastro 13 yaşında olarkən elektrik mişarı onun biləyini kəsmişdi. Lakin o, əlil olmasına baxmayaraq məşhur futbolçu olmaq arzusu ilə yaşayırdı. Onun bu istəyi ürəyində qalmadı. Öz ölkəsində təşkil olunan dünya çempionatında o yığma komandanın heyətində yer alaraq dünya çempionu tituluna yiyələnmişdi. Futbolçu karyerasını başa vurduqdan sonra Hektor məşqçi kimi fəaliyyət göstərmişdi.

## Yayda qar görən avropalılar

İlk dünya çempionatının məhz cənub yarımkürəsində keçirilməsi böyük marağa səbəb olmuşdu. Belə ki, iyul ayında Uruqvayda qış fəsli idi. Avropalılar üçün bu qeyri-adi görünmüşdü. Axı onlar ilin həmin ayında qızmar günəşə, yüksək hərarətli hava şəraitinə öyrəşmişdilər. Belə ki, ilk görüş - Fransa-Meksika matçı zamanı Montevideodakı stadionda qar görən avropalı futbolçular heyrətlənmişdilər.

## Həyat yoldaşını görmək üçün edilən risk

Uruqvay yığmasının DÇ-də ümid bəslədiyi qapıçılardan biri Andres Masali idi. O, çempionatdan əvvəl Paris-1924 və Amsterdam-1928 Yay Olimpiya oyunlarında futbol yarışlarının ardıcıl çempionu olan heyətinin əsas üzvü sayılırdı. Lakin o, çempionatın başlanmasına bir neçə gün qalmış təlim-məşqləri yarımçıq qoyaraq, yığmanın düşərgəsini həyat yoldaşını görmək üçün icazəsiz tərk etmişdi. Onun bu addımı təbii ki, cəzasız qalmamışdı. Rəhbərlik Andres Masalinin əvvəlki uğurlarını nəzərə almadan onu heyətdən tamamilə kənarlaşdırmışdı.

## Baş hakimi polisə apardılar...

Maraqlı hadisələrdən biri də final qarşılaşmasının əsas hakimi belçikalı Con Lanjenyunun başına gəlmişdi. Belə ki, final matçına bilet əldə edə bilməyən bir neçə azarkeş hiyləyə əl atıb, baş hakimin adından saxta vəsiqə hazırlamışdı. Vəziyyətdən xəbərdar olan polis məsələ ilə bağlı şübhəli olanların hər birini istintaqa cəlb etmişdi. Maraqlıdır ki, onların içərisində Con Lanjenyu da var idi. Araşdırmalardan sonra əsl hakim müəyyənləşib, azadlığa buraxılmışdı. Belçikalı hakim matçın start fitinə bir neçə dəqiqə qalmış oyuna çata bilmişdi.



*Həyəcanlı belçikalı hakim*

## ...finaldan dərhal sonra öz ölkəsinə "qaçdı"

Cənubi amerikalıları çılğın xalq kimi adlandırırlar. Uruqvaylılar saxta vəsiqə söhbətindən sonra çılğınlıqlarını növbəti dəfə finalın baş hakimi Con Lanjenyuya hiss etdirmişdilər. Belçikalı hakimi final matçına baş hakim təyin etdikdən sonra ona hədə-qorxu gəlməyə başlamışdılar. Lanjenyu təhlükə ilə qarşılaşmamaq üçün final matçı bitər-bitməz, hava limanına yollanıb, öz qitəsinə "qaçmışdı."

## Hər komanda öz topu ilə oynamaq istəyirdi

Final görüşü qalmaqalla başlamışdı - desək, yanılmarıq. Uruqvay - Argentina matçında tərəflər heç cür razılığa gələ bilməmişdilər. Finalçılar çalışmışdılar ki, özlərinin gətirdiyi toplarla oynasınlar. Heç bir tərəf bir-birinə güzəştə getmək istəməmişdi. Sonradan ortaq bir məxrəcə gəlmək üçün bir qərar verilmişdi. Qərara alınmışdı ki, birinci hissədə argentinalıların, ikinci hissədə isə uruqvaylıların topu ilə oynasınlar. Qonaqların topları onlar üçün düşərli olmuşdu. İlk hissədə Argentina millisi 2:1 hesablı üstünlüklə fasiləyə yollanmışdılar. İkinci hissədə isə uruqvaylıların topları üç dəfə rəqib qapısından keçmişdi. Nəticədə ev sahibləri dünya kubokunun qalibi adını qazanmışdılar.




## Uruqvayda bayram, Argentinada iğtişaş...

Kuboku qalib komandaya FİFA prezidenti Jül Rime təqdim etmişdi. Növbəti günü Uruqvayda hökumət istirahət gün elan etmişdi. Bütün ölkədə çempionluq böyük bayram kimi qeyd olunmuşdu. Uruqvaydan fərqli olaraq Argentinada isə azarkeşlər paytaxt Buenos-Ayresdə böyük iğtişaş yaratmışdılar. Qəzəbli fanatlar Uruqvay səfirliyinin binasını daşa basmışdılar.

*Səhifəni hazırladı:*
*Anar Əhmədov*

# Dünya–idmanı



*Ufüqi*

**3.** Əyləncəli idman növü növü. **4.**...gimnastikası. **6.** Döyüş sənəti. **7.** Madrid “Real”ının yeni transferi. **9.** Avropanın “püşk şəhəri”. **12.** Azərbaycan Premyer Liqasında çıxış edən klub. **13.** Türkiyə futbolunda bu mövsümün qalibi. **15.** Topun oyuna əllə daxil olması. **16.** Şərq əlbəyaxa döyüş növü.

*Şaquli*

**1.** Basketbol termini. **2.** İslam Oyunlarına ev sahbiliyi edəcək Afrika ölkəsi. **5.** “Mançester Siti”nin norveçli yeni transferi. **8.** MHL-də çıxış edən Kanada hokkey komandası. **10.** Copa Amerika turnirinin son çempionu. **11.** “Asteklər ölkəsi”. **14.** “Alfa Romeo”nun finlandiyalı pilotu. **17.** Stolüstü tennisin oxşarı pinq-...




# Bir cümlə, bir xəbər

“Mançester Siti” sabiq futbolçusu Serxio Aqueroya “Etihad” stadionunun yaxınlığında heykəl ucaldıb.

* * *

PSJ-nin yarımmüdafiəçisi Aşraf Hakimi Avropada sürətli səyahət üçün saatı 3 min 100 avroya başa gələn “Hawker 400” markalı şəxsi təyyarə icarəyə götürüb.

* * *

İtaliya futbolunun canlı əfsanəsi Roberto Baccio: “Daha futbolla maraqlanmıram. Özüm üçün başqa əyləncələr tapmışam. Odun doğrayıram, traktorla sahədə işləyirəm və gecələr o qədər yorğun oluram ki, başım fırlanır.”

* * *

İngiltərənin “Çelsi” klubu “WhaleFin” kriptovalyuta şirkəti ilə 24,4 milyon funt sterlinq məbləğində sponsorluq müqaviləsi imzalayıb.

* * *

“Tik-Tok” sosial şəbəkəsi bu il İngiltərədə keçiriləcək futbol üzrə qadınlar arasında Avropa çempionatının rəsmi sponsoru olub.

**olimpnews.az - sizin saytınız**






# Həftəlik idman qoroskopu

**Qoç**

Bu bürcdən olan idmançılar liderliyi xoşlayırlar. Futbol, basketbol və voleybol sizin üçündür. Oyunlarınıza ehtiyac duyanların sayı isə kifayət qədərdir.

**Buğa**

Səs-küyü xoşlayan buğalar hər bir idman növündə yüksək nailiyyət əldə etməyə meyllidirlər. Ətrafdakılar və həmkarlarınız tərəfindən qazandığınız etimad sizə əlavə stimul verə bilər.

**Əkizlər**

İmkan daxilində evinizdə idmanla məşğul olmaq üçün şərait yaratmağınız vacibdir. Əkizlər bürcündən olanlar səhər qaçışı ilə məşğul olsalar, daha yaxşı olar.

**Şir**

Bu həftə ulduzlar şirlərə idmandan bir qədər kənar gəzməyi məsləhət görürlər. Təbiətin qoynuna çıxsanız, bu, səhhətinizə xeyir verəcək. Ətrafdakılar və həmkarlarınızla da mehriban olun. Əsəblərinizi cilovlayın.

**Xərçəng**

Diqqətli olmalısınız. Ətrafınızda baş verənlərə bir qədər soyuqqanlı yanaşın. Məşqlərinizi davam etdirin. Çünki sizi qarşıda böyük yarışlar gözləyir.

**Qız**

Bu həftə rəqabətə girməyiniz məsləhət deyil. Bir az təmkinli olun. Heç kimə pis üz göstərməyin və səbirli olun. Belə olan halda hamı sizə hörmət edər. İdman sahəsində irəliləyişlər olacaq.

**Tərəzi**

Bu həftə sizin üçün qaranlıq qalacaq çox az məsələ ola bilər. Yarış zamanı ağıllı və təmkinli olsanız, böyük uğurlar əldə edəcəksiniz.

**Əqrəb**

Böyük səbir sahibi olduğunuz üçün hamı sizə hörmət edəcək. İntellektual idmana üstünlük verin. Eyni zamanda, digər idman növlərinə də hörmətlə yanaşın. Amma özünüzü yormayın, çünkü qarşıda sizi yarışlar gözləyir. Bu, sizin həftənizdir.

**Oxatan**

İdman formanızı saxlamaq üçün əziyyət çəkəcəksiniz. Amma bunu etməyə dəyməz. Səhər qaçışı ilə məşğul olsanız hər şey qaydasına düşəcək.

**Dolça**

Səhhətinizə fikir verin. İdmandan kənar gəzin. Bu, sizin xeyrinizə olacaq. Əks halda həkimə müraciət etməli olacaqsınız.

**Oğlaq**

Bu həftə sizin enerjiniz həddindən artıq çox olacaq. İmkan daxilində məşqlərin vaxtını artırın və lazımi qədər məşğul olun. Oğlaq bürcündən olanlar atletika, futbol və hokkeylə məşğul olsalar, daha yaxşı olar.

**Balıqlar**

Balıqlar bu həftə o qədər də fəal olmayacaqlar. Amma idmanla müntəzəm məşğul olmaq lazımdır. Bu bürc altında doğulanlar həftənin sonuna qədər daha çox yüngül idman hərəkətlərinə üstünlük verəcəklər.



*“Olimpiya dünyası” qəzetinin arxivindən*

(“Olimpiya dünyası” qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)

***Etibarsızdır***

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının IV kurs, qrup 118 A1 tələbəsi Cəlilova Gülşən Kamil qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19